**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə” 2021-ci il 26 may tarixli 151 nömrəli və “COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında” 2021-ci il 27 noyabr tarixli 371 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 may tarixli 151 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, 5, maddə 530, 6 (IV kitab), maddələr 668, 679, 683, 7, maddələr 872, 890, 891, 8, maddələr 957, 971, 9, maddələr 1051, 1079, 10, maddə 1182; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 11 dekabr tarixli 389 nömrəli və 23 dekabr tarixli 409 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bənd üzrə:

1.1.1. “yaşı 18-dən” sözlərindən əvvəl “2022-ci il fevralın 15-dən etibarən” sözləri əlavə edilsin;

1.1.2. “COVID-19-a qarşı ən azı 2 doza peyvənd olunmaları” sözləri “etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı” sözləri ilə və “olmaları barədə təsdiqedici” sözləri “olmanı təsdiqləyən” sözləri ilə əvəz edilsin;

1.2. 2.4-cü bənddə “fevralın 1-dən” sözləri “fevralın 15-dən” sözləri ilə, “işçilərinin COVID-19-a qarşı ən azı 2 doza peyvənd olunmaları” sözləri “işçilərindən etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatının” sözləri ilə və “olmaları barədə təsdiqedici sənədi” sözləri “olmanı təsdiqləyən sənədin” sözləri ilə əvəz edilsin;

1.3. 2.5-5.1-ci yarımbənddə “fevralın 1-dən” sözləri “fevralın 15- dən” sözləri ilə, “işçilərinin (əmək və ya mülki müqavilələrlə işləməsindən asılı olmayaraq) COVID-19-a qarşı ən azı 2 doza peyvənd olunmaları” sözləri “işçilərindən (əmək və ya mülki müqavilələrlə işləməsindən asılı olmayaraq) etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatının” sözləri ilə və “olmaları barədə təsdiqedici sənədi” sözləri “olmanı təsdiqləyən sənədin” sözləri ilə əvəz edilsin;

1.4. 2.5-3.3-cü, 2.5-5.2-ci və 2.5-5.3-cü yarımbəndlərdə “COVID-19-a qarşı ən azı 2 doza peyvənd olunmaları” sözləri “etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı” sözləri ilə və “olmaları barədə təsdiqedici” sözləri “olmanı təsdiqləyən” sözləri ilə əvəz edilsin;

1.5. 2.5-9-cu yarımbəndə “bu Qərarın” sözlərindən əvvəl “2022-ci il fevralın 15-dən etibarən” sözləri əlavə edilsin və həmin yarımbənddə “COVID-19-a qarşı ən azı 2 doza peyvənd olunmuş” sözləri “etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı” sözləri ilə, “olmaları barədə təsdiqedici” sözləri “olmanı təsdiqləyən” sözləri ilə əvəz edilsin;

1.6. həmin Qərara əlavə - “İşçilərinin COVID-19-a qarşı peyvənd olunması və ya COVID-19-dan sağalaraq immunitetə malik olmaları barədə təsdiqedici sənədinin olması, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatının olmasının tələb edildiyi iş və xidmət sahələrinin Siyahısı”nın adında “COVID-19-a qarşı peyvənd olunması” sözləri “etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatının” sözləri ilə, “olmaları barədə təsdiqedici sənədinin” sözləri “olmanı təsdiq edən sənədinin” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 noyabr tarixli 371 nömrəli Qərarı ilə təsdiq edilmiş “COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.2.1-ci yarımbənddən “, o cümlədən xarici ölkədə birinci doza peyvənd olunması” sözləri çıxarılsın;

2.2. 4.1.1.3-cü, 4.1.2.3-cü, 4.1.4.3-cü yarımbəndlərdən “(olduğu halda)” sözləri çıxarılsın və həmin yarımbəndlərə “sənədinin nömrəsi” sözlərindən sonra “(olduğu halda)” sözləri əlavə edilsin;

2.3. 4.1.3.3-cü yarımbəndə “nömrəsi” sözündən sonra “və sərhədkeçmə sənədinin nömrəsi” sözləri əlavə edilsin;

2.4. 5.1.1-ci yarımbənddə “müddətsiz” sözü “6 ay, həmin müddət bitdikdən sonra peyvənd istehsalçısının istifadə təlimatında 2 doza vurulması nəzərdə tutulan peyvəndin 1 dozasını aldıqda – müddətsiz” sözləri ilə əvəz edilsin;

2.5. 5.1.2-ci yarımbənddən “56 gün ərzində” sözləri çıxarılsın;

2.6. həmin Qərarla təsdiq edilmiş “Peyvənd Sertifikatı”nın forması”nda “1-ci dozanın tarixi/Date of 1st dose”, “2-ci dozanın tarixi/Date of 2nd dose”, hər iki halda “Peyvəndin seriya nömrəsi/Batch number” sözləri “Dozaların sıra sayı, vurulduğu tarixlər, seriya nömrələri/ Number of doses, injection dates and batch numbers:

1.

2.

**Qeyd.** Əlavə peyvənd dozaları Sertifikatda göstərilir.” sözləri ilə əvəz edilsin.

**3.** Bu Qərar 2022-ci il 15 fevral tarixindən qüvvəyə minir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 dekabr 2021-ci il
419